# Vətəndaş qəbulları

Rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən fevral ayının 2-də,16-da və 24-də



vətəndaş qəbulları keçirilib. Hər bir qəbul zamanı Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin, qazilərin və digər vətəndaşların müraciətləri fərdi şəkildə dinlənilmiş, irəli sürdükləri təkliflərin, qaldırdıqları məsələlərin bir qismi yerindəcə həll olunmuş, digərlərinin həlli nəzarətə götürülmüşdür. Şəhid valideyinləri və qazilər onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirmişlər.

# Gənclər günü



Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində 2 fevral - Azərbaycan Gəncləri gününə həsr olunmuş tədbir keçirilmişdir. Öncə Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad olunması uğrunda canından keçən şəhidlərin xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir. Tədbiri giriş sözü ilə açan Qəbələ Rayon İcra Hakimiyyətinin başçısının müavini Ətayə Osmanova Azərbaycanda dövlət gənclər siyasətinin Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulduğunu və bu günkü bayramın Ulu Öndər tərəfindən gənclərə ərmağan olduğunu bildirmişdir. Çıxış edən Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin nümayəndəsi Fəxri Soltanov müasir iqtisadi-siyasi, mədəni həyatımızın, müstəqil dövlətimizin daha da çiçəklənməsi üçün sağlam, müstəqil düşüncəyə malik olan, kreativ düşüncəli gənclərin yetişdiyini qeyd etmişdir. Tədbirdə digər çıxış edənlər Azərbaycanda gənclər siyasətinin bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyindən və həyata keçirilən möhtəşəm layihələrdən danışmışlar. Tədbirin sonunda Uşaq və Gənclər İnkişaf Mərkəzinin "Təbəssüm" rəqs qrupunun ifasında rəqslər nümayiş olunmuş və şagirdlər Zəfər qazanmış qəhrəman gənclərə həsr olunmuş şeirlər səsləndirmişdir.

# Xocalı Soyqırımı ilə bağlı şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir




26 fevral Xocalı Soyqırımı günü ilə bağlı saat $17^{00}$-da Qəbələ rayonu ərazisində Xocalı şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin!

# Xocalı şəhidləri anıldı

26 fevral 2024-ci il tarixdə Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasının üzvləri Xocavənd rayonunun Hadrut qəsəbəsində yerləşən Alban kilsələrinə ziyarət ediblər. Bu kilsələrdə Xocalı faciəsinin 32-ci il dönümü ilə bağlı anım tədbiri keçirilib. Xocalı şəhidlərinin və cəmi şəhidlərimizin ruhlarına şamlar yandırılıb və dualar edilib. Allah cəmi şəhidlərimizə rəhmət eləsin.

# Xocalı soyqırımına həsr olunmuş anım tədbiri



26 fevral 2024-cü il tarixdə Xocalı faciəsinin 32-ci ildönümü ilə əlaqədar Qəbələ Rayon İcra Hakimiyyətinin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilat rəhbərlərinin, rayonumuzda müvəqqəti məskunlaşmış Xocalı sakinləri və ictimaiyyətinin nümayəndələrinin iştirak etdiyi tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra bu qanlı faciəyə siyasi-hüquqi qiymət verildiyini, erməni vəhşilərinin tarix boyu xalqımıza qarşı törətdikləri terrorizmi heç vaxt unutmayacağını diqqətə çatdırmış, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ordusunun mənfur düşməni darmadağın edərək işğal altında qalan torpaqlarımızın, o



cümlədən Xocalının azad edilərək, düşməndən qisasının alındığını bildirmişdir. Xocalı ziyalısı Kamal Məmmədov və ağsaqqal Qiyas Əhmədov çıxış edərək, erməni silahlıları tərəfindən törədilən Xocalı faciəsində dinc xalqa qarşı edilən misli görünməmiş vəhşiliklərdən bəhs etmiş, amansız soyqırım günündə belə xocalıların xalqımızın qəhrəmanlıq tarixinə şərəfli səhifələr yazdığını qeyd edərək, Xocalının separatçılardan azad edilməsindən sonra faciənin 32-ci ildönümünün tam başqa əhval-ruhiyyə ilə anıldığını, səbrsizliklə öz doğma yurd-yuvalarına köçəcəkləri günü gözlədiklərini bildirmişlər. Sonda şəhidlərin ruhuna dualar oxunmuş, Qəbələ Rayon Şəhidlər Xiyabanı kompleksi ziyarət edilərək məzarların üzərinə gül dəstələri düzülmüş və xatirə şəkli çəkdirilmişdir.

# Xocalı soyqırımı - bəşəri cinayət

***Bütövlükdə Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bütün bəşəriyyətə qarşı tarixi bir cinayətdir.***

**Heydər Əliyev.**

Tarixin ən dəhşətli faciəsi olan Xocalı soyqırımının törədilməsindən 32 il ötür. Xocalı soyqırımı Azərbaycan tarixinə ən dəhşətli və faciəli hadisələrdən biri kimi daxil olmuşdur. Azərbaycan xalqı 200 il ərzində erməni millətçi-şovinistlərinin davamlı olaraq etnik təmizləmə, soyqırım siyasətinə məruz qalmış, tarixi torpaqlarından qovulmuş, qaçqına, məcburi köçkünə çevrilmiş və bütün bunlar ermənilər tərəfindən kütləvi qırğınlarla müşayət olunmuşdur.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri Xankəndi şəhərində yerləşdirilmiş keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücum etmişlər. Əvvəlcə şəhər dörd tərəfdən erməni qoşunları tərəfindən əhatə olunmuş, sonra isə Xocalıya artilleriya və ağır hərbi texnikadan güclü və amansız atəş açılmış, az bir vaxt ərzində şəhərdə yanğın baş vermiş, şəhər tamamilə alova bürünmüşdür. Şəhərin müdafiəçiləri və yerli əhali oranı tərk etməyə məcbur olmuşlar. Fevralın 26-sı səhər saat 5-ə kimi şəhər erməni işğalçıları tərəfindən zəbt edilmişdir. Bir gecənin içərisində qədim Xocalı yerlə-yeksan edilmişdir. Şəhəri tərk etməyə məcbur olan əhali dağlara, meşələrə qaçmışdır. Hər tərəfdə silahlı ermənilər dinc əhalini güllələmiş, onlara amansız divan tutmuşlar. Nə qədər insan erməni silahından yayınıb meşələrə, dağlara qaçsalar da, onların çoxu soyuqdan, şaxtadan məhv olmuşdur…

Cinayətkar erməni qoşunlarının vəhşiliyi nəticəsində Xocalı əhalisindən 613 nəfər öldürülmüş, 487 nəfər şikəst olmuş, 1275 nəfər dinc sakin - qocalar, uşaqlar, qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqir və həqarətlərinə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyil. Bu əsl soyqırım idi. Xocalıda öldürülmüş 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq, 70 nəfəri qocadır. Xocalı faciəsində 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir. Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, üzlərinin dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdır. Ermənilər, hətta meyitləri də təhqir etmişlər…

Azərbaycan xalqı və onun dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

Ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra isə Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilmişdir. Bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülmüşdür. 1994-cü ilin fevralında da ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikasının Milli Məclisi Xocalıda baş vermiş hadisələri geniş təhlil edərək "Xocalı Soyqırımı Günü haqqında" Qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq dünya ictimaiyyətini erməni terrorizminə qarşı qəti tədbirlər görməyə çağırmışdır. Qəbul edilmiş qərara əsasən bəşər tarixinin qanlı səhifələrindən olan Xocalı hadisələri ilə əlaqədar fevralın 26-sı "Xocalı Soyqırımı Günü" elan olunmuşdur. Azərbaycan xalqı Xocalıda qətlə yetirilmiş yüzlərlə həmvətənimizin xatirəsini daim əziz tutur, torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olanları ehtiramla yad edir.

Bu il Xocalı soyqırımından 32 il ötür. Bu faciənin dünyada soyqırım kimi tanınmasında və haqq işimizin dünya ictimaiyyətinə çatdırılmasında bütün Azərbaycan Respublikası ictimai-siyasi birliklər, ictimai təşkilatlar, türk-Azərbaycan diaspor təşkilatları, tarixçilər, siyasi xadimlərlə yanaşı hər birimiz bu yolda öz mübarizəmizi yorulmadan davam etdirməliyik.

Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qətiyyətli iradəsiylə başlanmış İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin inamlı qələbəsi ilə başa çatmışdır. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımızı geri qaytardı. Bu haqq döyüşündə tarix yazan Azərbaycan ordusu tərəfindən məhv edilən düşmən qüvvələri içərisində Xocalı soyqırımının cəlladları da vardı. Tarixi qələbə qazanan ordumuz bu qətliamın günahsız qurbanlarının qisasını aldı. Xocalıda, eləcə də Qarabağ uğrunda həlak olan bütün şəhidlərimizin ruhu əbədi rahatlığa qovuşdu.

**Nərmin AĞAYEVA,**
**Qəbələ rayon prokurorunun köməkçisi,**
**III dərəcəli hüquqşünas.**